# ÇALDIRANA GEDƏN YOL

## romandan səhifələr



Hüseynbala MİRƏLƏMOV

*Qızılbaşların Sultan Murad üzərində qələbəsi haqqında xəbər çox tez yayıldı. Şah İsmayılın rəqibləri dərd-qəmə batmışdı. İstər Sultan Bəyazid Batıda, istərsə də Xorasan hakimi Doğuda Şah İsmayılın uğurlarını özlərinin nüfuzlarına zərbə kimi qəbul eləyirdilər.*

*Xüsusilə, Sultan Bəyazid Qızılbaşların tutduqları əraziləri gözlərinin önünə gətirəndə vahimələnirdi. Bir vaxt Uzun Həsənin ixtiyarında olan Anadolu tərəflərin iddiasını da edəcəklərini düşünəndə Sultan Bəyazidi od götürürdü. O, indiki məqamda çox asanlıqla Əlvənd Mirzəni darmadağın etmiş, Əlaüddövlə Zülqədar bəyin qoşunlarını pərən-pərən salmış və nəhayət, Sultan Muradın möhtəşəm səltənətini viran qoymuş Qızılbaşları erkən boğmamaqda öz səhvini bağışlamırdı. Düşünürdü ki, əgər vaxtında hələ Təbrizə daxil olmamış Qızılbaşları döyüşə çəkib darmadağın etsəydi, indi belə bir təhlükə ilə də üzləşməzdi. İndi ondan keçmişdi. Əgər Sultan Murad Osmanlıların odlu silah ustalarının, əsas da topçularının köməyindən istifadə edib Şah İsmayıla qalib gələ bilməmişdisə demək, onunla hərb dilində danışmağın vaxtı da ötmüşdü. Elə bu səbəbdən Sultan II Bəyazid Şah İsmayılın hüzuruna elçilər göndərib onunla dil tapmağı, ünsiyyət qurmağı daha üstün bildi. Bütün bu ötən vaxt ərzində onu Şah İsmayılın üzərinə yürüş etməyə ruhlandıran qərb ölkələrinin, xüsusilə də, Roma Papasının məktublarını ehtinasızlıqla bir tərəfə atırdı, çünki belə təhrikedici məktublar hələ də gəlməkdə davam edirdi.*

*Sultan II Bəyazid Şah İsmayılın Sultan Murad üzərində qələbəsi xəbərini soyuq qarşıladı, çünki o, artıq inanırdı ki, belə qələbələr Qızılbaşlar üçün çox təbiidir və asan başa gələndir.*

*Osmanlı sarayında çox güclü vurnuxma var idi. Adlı-sanlı sərkərdələr, divan üzvüləri həyəcan keçirirdilər. Onlar düşünürdülər ki, tezliklə Şah İsmayılın Osmanlılar üzərinə yürüşü haqqında xəbərlər gələcək. Demək, onlar da belə bir xəbərin gələcəyi təqdirdə döyüşə hazır olmalı idilər. Ancaq Sultan Bəyazidin yanına - yəni bir başa sultanın hüzuruna gedib-gələn şəxslərin qeyri-adi təmkinindən də şübhəli qalmışdılar; deyəsən, Sultan Bəyazid müharibəyə hazırlaşana oxşamırdı.*

*(Əvvəli ötən saylarımızda)*

Həqiqətən də Sultan Bəyazid sanki, müharibədən bezmişdi. Ən başlıcası, hiss edirdi ki, Qızılbaşlarla savaş ona heç bir fayda gətirməyəcək. Hələ üstəlik ola bilərdi ki, Qızılbaşların indiki yüksələn nüfuzu və getdikcə güclənən ordusu onun qüvvələrini həm psixoloji, həm də hərbi cəhətdən darmadağın eləsin.

Sultan II Bəyazid Şah İsmayılla münasibətləri kəskinləşdirməkdənsə, onunla dil tapmağı əsaslı sülh şəraitində qonşuluq münasibəti qurmağı üstün bildi. Hələ Sultan belə bir düşüncədəykən onu da yaxşı bilirdi ki, bir çoxları Qızılbaşlarla sülh qurmağı düzgün hesab etməyəcək... Amma, həyatın öz diqtəsi vardır. Sultan II Bəyazid onu da yaxşıca görürdü ki, Qızılbaşların günəşi doğmaqdadır. Özü də bu günəşin işığı parlaqdır. Ətrafdan nə qədər ağ olsun, ya qara, buludlar bu günəşin önünə tərəf sürünsə də onun işığını batırmaq gücündə deyil. Hansı bulud bu günəşin önünə doğru sürünsə, tezliklə yağış olub yerə hopacaq. Bəlkə, heç izitozu da qalmayacaq. Ona görə də Sultan II Bəyazid divan adamlarının narahatlıqlarını, nigaranlıqlarını görsə də əhəmiyyət vermir, üstünü vurmurdu.

Şah İsmayılın hüzuruna gedəcək ağıllı bir elçi haqqında düşünür və bu elçi ilə Şah İsmayıla sülh təklifini də göndərmək niyyətində idi.

1503-cü ilin axırına yaxın Osmanlı sarayında əhval belə idi.

Bunun əksinə olaraq Qızılbaşların sakin olduğu Şiraz sarayında yüksək əhval-ruhiyyə vardı. Çünki, Sultan Murad məğlub olmuş və üstəlik qorxaqlıqla Qızılbaşların nüfuz dairəsinə aid olan ərazilərdən çox sürətlə baş götürüb uzaqlara yol almışdı.

Sultan Muradın məqsədi Diyarbəkir tərəflərə özünü yetirmək, Əlaüddövlə ilə Şah İsmayıl arasındakı münaqişədən bəhrələnərək ona sığınmaq, yaxud da Diyarbəkir tərəfdə qardaşı Əlvənd Mirzənin tərəfdarları ilə birləşmək idi. Özü də bu birləşmənin və tərəf toplamanın mahiyyəti nə qədər güclü olsa da yığacağı qüvvənin Qızılbaşları yenə bilmək qüdrətində olmadığını da anlayırdı. Ona görə də Sultan Murad Allahına yalvarırdı ki, Şah İsmayıl onu təqib etməsin, onun arxasınca gəlməsin. Keçmiş Ağqoyunlu səltənətinin uzaq bir küncündə başını daldalayıb ömrünü başa vursun. Heç Şirazda qalan sərvətinin Qızılbaşların əlinə keçməsindən də dilxor deyildi. Çünki, belə sərvət Ağqoyunlu səltənətinin çox yerində cəmlənmişdi. Və Sultan Murada yaxın olan qüvvələr tərəfindən mühafizə olunurdu. Bəli, Sultan Murad yaxşı bilirdi ki, hansı tərəfə üz tutsa maddi cəhətdən arxayınlığı olacaqdı. Hələ üstəlik yeri düşdükcə Şirazdakı sərvətinin əlindən çıxdığını, İraqdakı təntənəsinin dağıldığını yada saldıqca başına, gözünə də döyürdü. Özünü qınayırdı ki, niyə vaxtında anlamadı ki, onun günəşi batmaqda, Şah İsmayılın günəşi isə doğmaqdadır.

...Ara-sıra ona xəbərlər gəlirdi ki, Ağqoyunlu hökmdarının nəvə-nəticələri - burada söhbət Uzun Həsənin nəvə-nəticələrindən gedir - Qızılbaşların təriqətini qəbul edir, Şah İsmayıla beyət edirlər. Bundan qəzəblənsə də, son nəticədə onların düzgün yolda olduqlarını dilinə gətirməsə belə qəlbən təsdiq edirdi.

Axı doğrudan bu hakimiyyət deyilən nədirsə onun insanın gözünü bağlamağını hər kəs vaxtında bilə bilmir - Sultan Murad belə düşünürdü. Məhz belə məqamlarda o, ağır kədər və dərd içində başına döyür, özünü qınayırdı.

...İbrahim Mirzənin başçılığı altında karvan Şiraza yetəndə hələ günün batmağına xeyli vardı.

Şah Hüseyn Lələ bəyə tapşırıq vermişdi ki, Təbrizdən gələn karvanı çox böyük təntənə ilə qarşılasınlar.

Hələ karvan şəhərə daxil olmamış böyük bir təntənə qurulmuşdu. Sarayın xərci hesabına küçələrdə bayram süfrələri açılmışdı. Qərib ellərdən gələnlər qələbə sorağında olan qonşu əyalətlərin nümayəndələri minbir naz-neymətin düzüldüyü süfrələrə dəvət olunurdular. Əsas meydanlarda Qızılbaşların qələbələrini tərənnüm edən aşıqlar oxuyurdu. Aşıqların oxuduğu nəğmələr təmiz Türk dilində idi. Saz havalarının sədaları altında cəmləşən adamlar sanki öz niyyətlərinin bayramına yığışmışdılar. Aşıqlar Şah İsmayılın qoşma və gəraylılarını oxuyur və bu qoşma və gəraylılardan gələn havacatla sanki, Qızılbaş sevdalılarına daha xoş bir gələcək haqqında müjdə verirdilər.

Bir tərəfdə də, xanəndələr aram-avazla Şah İsmayılın qəzəllərini müxtəlif muğam havaları üstündə ziə çəkirdilər.

O yerdəki qəzəlin möhür beytində Xətai yaxud da, Şah Xətai adı səslənirdi, onda ətrafa yığılmış adamların alqış sədaları göyə bülənd olurdu:

-Var olsun Şah Xətai!

-Yaşasın mürşidimiz!

-Başımız qurbandı mürşidimizə!

Şah İsmayıl Sultan Murada xas olan Şiraz sarayının balkonunda əyləşmişdi. Muğam məclisinin ən mötəbərindən biri də elə sarayın yaxınlığındakı meydanda idi. İstər-istəməz şah adamların gur səslə onun adını çəkib elədiyi alqışları açıq-aydın eşidirdi.

Şahın eşitdiyi bu alqış sədalarından qəlbi riqqətə gəldi, yerindən qalxdı, asta-atsa daş pillələri endi. O, xanəndənin yanına getmək istəyirdi. Məsafə isə çox qısa idi. Birdən ağlına nə gəldisə, göz gəzdirib kimisə nəzərləri ilə axtardı.

Hüseyn Lələ bəy şahın nigaran nəzərlərini tutub ona yaxınlaşdı.

-Kimi istəyirsən şahım!

- Bu xanəndələri, sazəndələri, aşıqları eşidirsənmi? - Şah soruşdu.

- Bəli şahım, eşidirəm. - Hüseyn Lələ bəy cavab verdi:

-Lələ, bu nə xidmətdir belə?! - Şah sınayıcı nəzərlə Hüseyn Lələ bəyin üzünə baxdı və sonra sorğusunu davam elədi, - Bunların bizim işimizə nə faydası var?

Bir anlığa Hüseyn Lələ bəy duruxdu. Nə cavab verəcəyini bilmədi. Elə həmin andaca xanəndənin oxuduğu qəzəli şahın da diqqətlə dinlədiyini görüb özü də qulaq kəsildi:

Dilbəra, mehrin əzəldən sidq ilə canımda var,
Andan özgə kimsə yoxdur, həm bilür pərvərdigar.

Bu fəna darində əhli-zövq ilən qılgil səfa,
Mülki malü təxtü cah olmaz cəhanda payidar.

Sayeyi - qəddində gərçi yer yüzi buldu şərəf,
Sayəbani - rifətindən nöh fələk dutmuş qərar.

Gəlməmişdir sən təki aləmdə, ey sultani - hüsn
Sahibi - fəzlü kəmalü izzəti ba iftixar.

Arif isən, qoymagil əldən həqiqət mənzilin,
Aqil isən, dinyeyi - ğəddarə verme ixtiyar.

Nəzmi - əşarın, Xətai hər biri dürdanədir,
Söyləgil ta şahların guşində olsun güşvar.

Hüseyn Lələ bəy “Nəzmi əşarın, Xətai, hər biri dürdanədir” sözlərini eşidəndə sanki, yuxudan ayıldı. Dönüb şahın az qala dolmuş gözlərlə və heyranlıqla xanəndəyə zillənən gözlərinə baxdı. Hüseyn Lələ bəy özünü saxlaya bilməyib körpəliyindən öz övladı kimi böyütdüyü İsmayılı qucaqladı.

-Sənə qurban olsun canım, şahım - dedi, - sonra özünü saxlaya bilməyib yenə davam elədi: - Sənin hər bir sözün qızıldır. Mən indi başa düşdüm ki, Qızılbaş ordusu az qüvvə ilə özündən qat-qat gücdü olan qoşunlara nə üçün qalib gəlir.

-Bəli, bizim gücümüzün yenilməzliyində hökmdarın ilahidən gələn sözlərinin də təsiri az deyil.

-Bəs onda nə düşünürsən? - Şah soruşdu.

-Düşünürəm ki, Qızılbaşlar qazandıqları qənimətlərin xeyli hissəsini aşıqlara, xanəndələrə, bir sözlə, sazəndələrə ödəməlidir.

-Mən də elə bunu istəyirdim.

Hüseyn Lələ bəy yaxındakı qulluq adamlarına şəhərin çal-çağırında iştirak edən bütün aşıqlara və sazəndələrə, bütün muğam ifaçılarına şahın adından ənam paylanmasını əmr etdi.

Carçılar Şiraz boyu ağız-ağıza vermişdi. Bundan sonra bütün aşıqlar, xanəndələr Şahın himayəsində olacaq. Bir azdan kütlə Şiraz darvazasına tərəf axışdı. Hər tərəfə xəbər yayıldı: “Təbrizdən karvan gəlir”.

Şah bu xəbəri əvvəldən bilirdi. Amma, sanki, elə indicə eşidirmiş kimi sevindi. O, sevgilisi Taclı ilə görüşəcəkdi.

***(Davamı var)***